**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **SENTYABR 2015**
**İNZİBATİ TƏNZİMETMƏ**

## REKLAM HAQQINDA QANUN

2015-ci il 15 may tarixində Azərbaycan Respublikasının "Reklam haqqında" yeni Qanunu qəbul edilmişdir. Qanunun 17 iyul 2015-ci il tarixdən qüvvəyə minməsi ilə, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 376-IQ nömrəli "Reklam haqqında" Qanunu qüvvədən düşmüşdür. 2015-ci il Qanununda, 1997-ci ildə qəbul edilən əvvəlki Qanunla tənzimlənməyən bəzi məsələlər öz əksini tapıb.

Qanunda televiziya və radio proqramlarında (verilişlərində) hansı hallarda reklam yayımının qadağan olunması və hansı fasilələrlə verilməsi, sponsor reklamlarının yerləşdirilməsinə dair yeni qaydalar, reklamda yetkinlik yaşına çatmayanların müdafiəsi, uşaqlar üçün süni qida məhsullarının reklamı və digər məsələlər əks olunmuşdur. Tütün məhsullarının reklamı, əvvəllər olduğu kimi, qadağan edilir.

### Reklam Yayımının Hansı Fasilələrlə Verilməsi

Qanunun 20-ci maddəsinə əsasən, teleradio proqramlarında (verilişlərində), idman proqramlarında, fasilələrlə gedən tədbirlərin və tamaşaların yayımında reklam, yalnız müstəqil hissələrin arasında ya da fasilələrdə verilir və bir reklam blokunun sonu ilə növbəti reklam blokunun əvvəli arasındakı zaman kəsiyi 15 dəqiqədən az ola bilməz. Bədii və televiziya filmlərinin yayımı zamanı isə 45-ci dəqiqədən sonra reklam verilə bilər. Filmlərin yayımı zamanı ikinci reklam blokuna o halda icazə verilir ki, yayımlanan filmlər 65 dəqiqədən çox davam etsin.

Xəbər proqramları, dini və uşaqlar üçün verilişlər, həmçinin 30 dəqiqədən az olan seriallar, əyləncəli proqramlar, siyasi verilişlər, sənədli filmlərin isə reklamla kəsilməsinə yol verilmir. İstisna hal kimi qeyd edilən proqram və verilişlər 30 dəqiqədən çox çəkərsə qanunun tələblərinə uyğun olaraq bir və ya bir neçə dəfə reklamla kəsilə bilər.

### Hansı Vaxtlarda Reklam Qadağan Olunur

Reklamın hansı hallarda qadağan olunması da Qanunda öz əksini tapıb. Matəm günlərində, eyni zamanda Azərbaycan Respublikası Milli Məclisi sessiyalarının, rəsmi dövlət tədbirlərinin, Azərbaycan Respublikası Prezidentinin, Baş Nazirinin, Milli Məclisi və Konstitusiya Məhkəməsi Sədrlərinin çıxışları zamanı reklam verilməsi habelə qaçan sətirlər vasitəsilə yayımlanması qadağan olunur.

### Sponsor Reklamlarının Yerləşdirilməsi

Qanunda daha bir yenilik isə sponsor reklamı ilə bağlıdır. Qanuna görə sponsor – *(idman, mədəni-kütləvi və digər tədbirlərin təşkili və (və ya) keçirilməsi, elektron informasiya vasitələrində proqramın yaradılması və (və ya) yayımlanması, habelə əqli fəaliyyətin başqa nəticələrindən istifadə olunması üçün)* könüllü maliyyə vəsaiti və (və ya) digər maddi vəsait ayıran yaxud ayrılmasını təmin edən şəxs hesab edilir. Televiziya və radioda müvafiq veriliş zamanı verilən sponsor reklamının həcmi iki dəqiqədən artıq ola bilməz. Sponsor reklamına dair bir qadağa ondan ibarətdir ki, alkoqollu içkilərin istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslərin sponsor qismində çıxış etməsinə o halda yol verilir ki, alkoqollu içkilərin reklamı saat 23.00-dan 7.00-dək yayımlansın.

### Yetkinlik Yaşına Çatmayanların Müdafiəsi

Qanunda yetkinlik yaşına çatmayanların müdafiəsi məqsədi ilə bəzi qadağalar əksini tapıb. Belə ki, reklamlar valideynləri, qəyyumları, tərbiyəçiləri və başqa şəxsləri uşaqların yanında nüfuzdan salmamalı, eləcə də

kobudluğu, nifrət hissini, təcavüzkarlığı, zərərli vərdişləri aşılamamalıdır. Reklamlarda həyat və sağlamlıq üçün təhlükəli olan hərəkətlər nümayiş etdirilməsi də qadağan olunur. Yetkinlik yaşına çatmayanlara mənəvi və fiziki baxımdan zərərli təsir göstərən reklamların bağça və məktəblərin yaxınlığında yerləşdirilməsi qadağalar siyahısındadır.

**Nəqliyyat Vasitələrində Reklam**

Qanunda həmçinin, nəqliyyat vasitələrində reklama dair bəzi məsələlər öz əksini tapır. Belə ki, nəqliyyat vasitələrində reklam yerləşdirmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən razılıq alınması tələb olunur. Nəqliyyat vasitələrində reklam yaradıcılıq, dizayn, çap keyfiyyəti baxımından, görüntüyə maneə törətməyən texniki hədlər daxilində müəyyən ediləcək normalar əsasında yerləşdiriləcəkdir. Nəqliyyat vasitələrində təhlükəsizliyi təmin etmək üçün qabaq və arxa şüşələrdə reklamın vurulması qadağan edilib.

**Açıq Məkanda Reklam**

Açıq məkanda reklam yerləşdirmək üçün icazə alınmalıdır. Açıq məkanda reklam avtomobil yollarının torpaq sahəsində, şəhər, kənd, qəsəbə və digər yaşayış məntəqələrində olan reklam daşıyıcıları üzərində yerləşdirilə bilər. Lakin, yol örtüyünün üzərində, yol hərəkəti nişanlarında, onların dirəklərində və digər tənzimləmə vasitələrində, yol qurğularında reklamın yerləşdirilməsi qadağan edilir.

Yuxarıda qeyd edilən yetkinlik yaşına çatmayanlara zərərli təsir göstərə bilən reklamların bağça və məktəblərdən hansı məsafədə yerləşdirilməsi, nəqliyyat vasitələrində reklamın texniki hədlərini müəyyən edən normalar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən ediləcəkdir.

Uşaqlar üçün süni qida məhsullarının, hamiləliyin süni yolla pozulması və süni mayalanma üzrə tibbi xidmətin, alkoqollu içkilərin reklamının açıq məkanda yerləşdirilməsi qadağan olunur.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2015 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

[*] Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.